# Ölkəmizdə sosial sahədə görülən işlər məmnunluq doğurur




***Prezident İlham Əliyevin tapşırığı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ötən ilin dekabrından qazilərimizin yüksək texnologiyalı protezlərlə təminatına başlayıb və 140-dan çox hərbçi ən müasir protezlərlə təmin olunub. ƏƏSMN tərəfindən qazilərimizin son nəsil müasir protezlərlə təminatı işləri davam etdirilir. Bu günlərdə nazirlik Vətən müharibəsinin daha iki iştirakçısını – Mingəçevir şəhər sakini Abdulla Abdullayevi və Qazax rayon sakini Abbas Yusifovu yüksək texnologiyalı protezlərlə təmin edib. Onlara nazirliyin Protez – Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində ilkin hazırlıq mərhələsi keçdikdən sonra ən müasir reabilitasiya vasitələri verilib.***

Qeyd edək ki, A.Abdullayev Ağdam rayonu uğrunda döyüşlərdə ağır yaralanaraq hər iki ayağını itirib. Dövlət başçısının sərəncamları ilə o, “Cəsur döyüşçü” və “Ağdamın işğaldan azad olunmasına görə” medalları ilə təltif edilib. A.Yusifov isə Suqovuşan, Talış istiqamətində gedən döyüşlərdə ağır yaralanaraq sol ayağını itirib. O, dövlət başçısının sərəncamları ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib. Hər iki qaziyə əlilliyə görə aylıq sosial ödənişlər təyin edilib.

Ölkəmizdə şəhid ailələrinə, qazilərə və əhalinin digər həssas qruplarına xüsusi diqqət və qayğı göstərildiyi məlumdur. Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli fərmanı ilə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması şəhid ailələri və qazilərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə xidmətlərin, ümumilikdə, 7 qurum üzrə 26 xidmətin “bir pəncərə”dən, operativ və şəffaf, vətəndaş məmnunluğu, şəffaflıq prinsipləri əsasında göstərilməsinə xidmət edir.

Bakıdakı DOST mərkəzlərində avqustun 23- dən fəaliyyət göstərən vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, həmin müharibədə xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 344 nəfər müraciət edib. Ötən dövrdə bu mərkəzlərə edilən 344 müraciətin 39-u Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə, 194-ü Müdafiə Nazirliyi üzrə, 17-si Səhiyyə Nazirliyi üzrə, 23-ü Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə, 29-u Yerli icra hakimiyyəti orqanları üzrə, 42-si Dövlət Sığorta Kommersiya Şirkəti üzrə olub. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üzrə müraciət olmayıb.

Müraciətlər aidiyyəti qurumların nümayəndələri tərəfindən qəbul edilərək, onlara əlaqələndirilmiş şəkildə baxılıb və operativ qaydada xidmətlər göstərilib.

142 – Çağrı Mərkəzi tərəfindən isə vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyəti ilə əlaqəli 95 müraciət cavablandırılıb. Xatırladaq ki, vahid əlaqələndirmə mərkəzləri Yasamal, Səbail və Qaradağ rayonları üzrə 1 saylı Bakı DOST Mərkəzində (Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, 86), Xəzər və Pirallahı rayonları üzrə 2 saylı Bakı DOST Mərkəzində (Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küçəsi, 30 b), Nizami, Xətai, Sabunçu və Suraxanı rayonları üzrə 3 saylı Bakı DOST Mərkəzi (Nizami rayonu, Heydər Əliyev prospekti, 183 b.), Binəqədi, Nəsimi və Nərimanov rayonları üzrə 4 saylı Bakı DOST Mərkəzində (Binəqədi rayonu, Ziya Bünyadov prospekti, 31-03) fəaliyyət göstərir.

Onu da qeyd etmək lazımdır ki, nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunmalarına elektron sistem üzərindən nəzarət tədbirlərini davam etdirir.

“Əmək müqaviləsi bildirişi” altsisteminə əmək müqaviləsi bildirişi daxil edilmiş, lakin icbari sığorta müqaviləsi olmayan işçilər üzrə işəgötürənlərin bu müqaviləni bağlaması üçün altsistemdə xəbərdarlıq məlumatları yerləşdirilib.

2020-ci ilin sonlarından başlayaraq 2021-ci ilin aprel ayında yekunlaşan qabaqlayıcı tədbirlərin ilk mərhələsində 620 işəgötürənlə bağlı e-sistem üzərindən araşdırma aparılıb. Onlardan inzibati xəta halları aşkar olunan 156 işəgötürənlə bağlı qanunvericiliyə uyğun tədbirlər görülüb. Bu ilin iyul ayından ikinci mərhələ kimi, 649 işəgötürənin məlumatları təhlil olunub və onlardan inzibati xəta faktları aşkarlanan işəgötürənlərlə bağlı tədbirlərin görülməsi prosesi davam etdirilir. Ümumilikdə qabaqlayıcı və nəzarət tədbirləri nəticəsində altsistemdə qeyd olunan icbari sığorta müqavilələrinin sayında 101 min artım özünü göstərib.

Prezident İlham Əliyevin tapşırığına əsasən əmək, məşğulluq, sosial müdafiə, əlillik və reabilitasiya sahəsində aparılan islahatların mühüm bir istiqaməti bu sahələrdə əhaliyə xidmətlərin müasir texnologiyalar üzərində, şəffaf və operativ, daha əlçatan, vətəndaş rahatlığı prinsipinə uyğun qurulmasıdır. Son illərdə bu istiqamətdə mühüm irəliləyişlər əldə olunub, bir çox yeni e-xidmətlər istifadəyə verilib. Hazırda xidmətlərin 105- i elektron müstəvidə göstərilir. ƏƏSMN-nin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildiriblər ki, qurumun fəaliyyət sahələrində informasiya texnologiyalarının tətbiqi proqramının icrası işlərinə ciddi diqqət yetirilir. Nazirliyin “Elektron hökumət” portalına yerləşdirilmiş xidmətlərində bu ilin 8 ayında 10,3 milyon, e-sosial.az portalında isə 6 milyon 850 minə yaxın müraciət qeydə alınıb. Bu dövrdə sosial təminat növləri (pensiya, müavinət, təqaüd) üzrə 130 minə yaxın təyinat və 93 minədək işçiyə sosial sığorta nömrəsinin (SSN) açılması e-qaydada, proaktiv formada yerinə yetirilib. Vətəndaşlara nazirliyin fəaliyyət sahələri üzrə bu ilin 8 ayında elektron qaydada 430 minə yaxın arayış verilib. Həmçinin 44 xidmətin elektron infrastruktur üzərindən proaktiv şəkildə göstərildiyi bildirilib. Bu xidmətlər vasitəsilə vətəndaşların hüquqları yarandığı vaxtda müraciətləri olmadan onlara müvafiq təyinatlar həyata keçirilir. Nazirliyin fəaliyyət sahələri üzrə 30 növ e-arayış xidməti də vətəndaşların istifadəsindədir. 31 qurumla informasiya bazalarının inteqrasiyası təmin olunub. Həmin qurumlar tərəfindən son 8 ayda nazirliyin informasiya bazalarına edilmiş sorğu sayı 86 milyondan çox olub. Daha 56 xidmət elektronlaşdırılır. Bundan sonra xidmətlərin artıq 94 faizi elektronlaşmış olacaq.

Yeni e-xidmət və e-təyinat sistemlərinin, altsistem və reyestrlərin, sosial sahədə Vahid İnformasiya Sisteminin, e-DOST platformasının yaradılması, “e-Arayış” sisteminin, habelə mövcud altsistemlərin təkmilləşdirilməsi və fuksional imkanlarının artırılması, İT sahəsində korporativ idarəçiliyin təkmilləşdirilməsi, təhlükəsiz və dayanıqlı informasiya infrastrukturunun inkişaf etdirilməsi sahələrində işlər davam etdirilir.

Sosial sahədəki yeniliklərdən, uğurlu işlərdən danışanda, bugünlərdə xalqımızın sevincinə səbəb olan möhtəşəm bir hadisəni də qeyd etməliyik. Bu da “Tokio–2020” Paralimpiya Oyunlarında idmançılarımızın 14-ü qızıl, 1-i gümüş və 4-ü bürünc olmaqla 19 medal qazanmasıdır. Azərbaycan “Tokio – 2020” Paralimpiya Oyunlarını 10-cu pillədə başa vurdu. Bu, paralimpiyamızın böyük qələbəsi, tarixi rekorda imza atması deməkdir. Qeyd edək ki, 2008-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Sumqayıt şəhərində MDB məkanında ilk dəfə olaraq beynəlxalq standartlara uyğun Paralimpiya İdman Kompleksi açılıb. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyindəki Sosial Xidmətlər Agentliyinin nəzdində fəaliyyət göstərən bu kompleks paralimpiyaçıların yüksək səviyyədə təlim-məşq prosesi keçməsində mühüm rol oynayır.

Dövlət başçısının tapşırığına əsasən, ƏƏSMN tərəfindən əlilliyi olan şəxslərin idmana aktiv şəkildə cəlb edilməsi üçün genişmiqyaslı işlər aparılmaqla, Milli Paralimpiya Komitəsinə illik əsasda maliyyə dəstəyi də ayrılır. Son üç ildə bu vəsaitin məbləği 2 dəfə artırılaraq 2, 2 milyon manatı ötüb. Paralimpiyanın inkişafına göstərilən dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərlə nəticələnir. Əgər əvvəlki 6 Yay Paralimpiya Oyunlarında milli paralimpiya komandamız cəmi 9 qızıl medal qazanmışdısa, tək Tokio Paralimpiya Oyunlarında 14 qızıl medal qazanıb. Bu, böyük tarixi uğurdur və Azərbaycanın “Tokio – 2020” Paralimpiya Oyunlarında qələbələri ilə hər birimiz qürur duyuruq.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2021.- 12 sentyabr.- S.5.